# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN DAĞ-MEŞƏ BİTKİLİYİNİN MÜASİR VƏZİYYƏTİNƏ DAİR

**Asim Səfərov**

*Bakı Dövlət Universiteti, asimsafarov@lit.ru*

Uzun illər erməni işğalı altında olmuş Qarabağda müxtəlif bitkilik tiplərinə rast gəlinir. Bu illər ərzində haqqında söhbət gedən ərazinin bitki örtüyündə təbii şəraitin təsirləri və antropogen faktorların birbaşa təsiri nəticəsində müxtəlif deqradasiyalar, pozuntular və s. qeydə alınmış, yerli mütəxəssislərin, botanik alimlərin ərazidə müəyyən tədqiqat və müşahidələr, eksperimentlər aparması mümkün olmamışdır. Erməni vandallarının 30 il ərzində ətraf mühitə vurduğu ziyanın bir sıra xüsusiyyətlərini qeyd etmək olar. Ərazidə unikal bitki qruplaşmaları məqsədli şəkildə məhv edilmiş və yandırılmış, Zəngilan rayonunda Bəsitçay sahilində 100 hektar ərazidə unikal meşə qruplaşması hesab olunan Şərq çinarı meşəliyi, Kəlbəcər, Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli, Laçın, Şuşa və digər rayonların ərazilərində özünəməxsus bioekoloji xüsusiyyətlərə, zəngin növ tərkibinə və biomorfoloji xüsusiyyətlərə malik meşə bitkilik tipinin ayrı-ayrı fraqmentləri müxtəlif məqsədlər üçün məhv edilmişdir. Meşə bitkilik tipinin təbii bərpa prosesləri pozulmuş və nəticə etibarilə ərazidə xüsusən dağ meşə bitkiliyinin vəziyyətində xoşagəlməz məqamlar meydana çıxmışdır.